# Dünya Qarabağda aparılan bərpa-quruculuq işlərini təqdir edir

***Otuz ilə yaxın dövr ərzində işğal altında olan torpaqlarımız azad edildikdən sonra həmin ərazilərdə böyük quruculuq işlərinin aparılması hər kəsin qəlbini iftixarla döyündürür. Dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq, düşmən əsarətindən qurtulmuş şəhər və rayonlarımızda bu gün irimiqyaslı tikinti layihələri həyata keçirilir, infrastruktur əsaslı şəkildə yenilənir.***



Qarabağın tacı olan Şuşanın dirçəldilməsi, orada beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi, digər rayonlarda "Böyük Qayıdış" naminə atılan addımlar – yolların çəkilməsi, elektrik yarımstansiyalarının yaradılması və ölkənin ümumi enerji sisteminə qoşulması, "ağıllı kənd" konsepsiyası üzrə yaşayış massivlərinin, sənaye mərkəzlərinin inşası, içməli su təchizatı və sair fərəh doğuran faktlardır. Şuşada səhərlər azan səsləri ilə açılır. Zəngilanın Ağalı kəndinə onlarca ailə köçürülüb. Qarabağa avtobuslar işləyir.

2021-ci ilin payızında Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışı hamımıza unudulmaz təsir bağışlayıb. Həmin aeroportun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. İndi Zəngilan Hava Limanının açılışına son hazırlıq işləri görülür. Laçın Aeroportu isə 2024-cü ildə istifadəyə veriləcək.

Ötən il, Zəngilanın işğaldan azad olunduğu gün – oktyabrın 20-də rayonun sakinləri ilə onların doğma yurdunda görüşən Prezident İlham Əliyev "Böyük Qayıdış" barədə fikirlərini açıq şəkildə ifadə etmişdi: "Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq".

Rəşadətli Azərbaycan Ordusu Qarabağın və Şərqi Zəngəzurun rayonlarını düşməndən azad edərkən bu ərazilərin, demək olar ki, yalnız quruca adı qalmışdı, vandallar hər tərəfi yerlə bir etmişdilər. Azğın düşmən 27-28 il ərzində "özünün" hesab etdiyi Qarabağın daşını daş üstə qoymamışdı. İndi isə burada qalib dövlətin qurucu xalqı böyük əmək cəbhəsi yaradaraq, əraziləri sürət və keyfiyyətlə abadlaşdırır.

Keçən ilin aprelində təməlqoyma mərasimi olmuş Zəngilan Aeroportunun uçuş-enmə zolağının uzunluğu 3 kilometrdir. Hava limanı ağır nəqliyyat təyyarələri də daxil olmaqla, bütün növ hava gəmilərini qəbul edə biləcək. İyulun əvvəllərində artıq bu beynəlxalq hava limanına sınaq uçuşunu icra edən ilk təyyarə eniş edib. Tezliklə aeroportun təntənəli açılış mərasimi reallaşdırılacaq.

Yeri gəlmişkən qeyd edək ki, dövlət başçısı bu növbəti hava limanının tikintisini "izafi xərc" sayan bəzi "təəssübkeş"lərin də nəzərinə çatdırıb ki, yeni aeroportun çox böyük funksiyaları olacaq. İki dövlətlə həmsərhəd olan rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Üstəlik, dörd və altı zolaqdan ibarət olan avtomobil yolları var.

Bəli, Azərbaycan təkbaşına Qarabağı və Şərqi Zəngəzuru qurub-yaratmaqdadır, özü də kimsədən bir sent dəstək görmədən! Bu da dünyanın ədalətsizliyidir. Ermənistana işğalçı siyasətin qarşılığında yardım paketlərini qəbul edən çevrələr 30 il ərzində yüz milyardlarla zərər görmüş ölkəni Qarabağ xarabalıqları ilə baş-başa buraxıblar. Amma biz buna da dözürük və əlimizi işdən soyutmuruq. Çünki hədəf "Böyük Qayıdış"dır! Qarabağ Azərbaycan xalqının isti nəfəsi üçün çox darıxıb, elə vətəndaşlarımız da doğma yurd yerlərinin həsrətindədirlər, qonaq kimi gedib-gəlmək bu niskili tam aradan qaldırmır. Ermənilər vaxtaşırı təxribatlar törətməklə hesab edirlər ki, azərbaycanlıların Qarabağa əbədilik (!) qayıdışını əngəlləyə bilərlər. Yanılırlar və reallıqlar göstərir ki, biz artıq oradayıq və ulu yerləri işğalçıların törtöküntüsündən əzmlə təmizləyirik.

Cənab İlham Əliyev bildirib ki, Ağalı kəndinin timsalında hər kəs işğaldan azad olunmuş ərazilərlə bağlı Azərbaycanın planlarını görə bilər. Təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf əsas amillərdir: "Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub... Təxirəsalınmaz işlərin görülməsi üçün əlavə vəsait ayrılacaqdır".

Hazırda Qarabağ və Şərqi Zəngəzurda 14 avtomobil yolu tikilir ki, onlardan 8-nin çəkilişi bi il sona çatdırılacaq. Tikinti işləri davam edən Füzuli–Hadrut, Hadrut–Tuğ–Azıx mağarası, Bərdə–Ağdam, Qubadlı–Eyvazlı, Qubadlı–Mahmudlu–Yazdüzü–Ermənistan sərhədi, Talış–Tapqaraqoyunlu–Qaşaltı–Naftalan, Kəlbəcər və Laçın rayonları ərazisində reallaşdırılan layihələrin son mərhələsi həyata keçirilir.

Maliyyə Nazirliyinin məlumatına görə, ötən il Qarabağın bərpasına dövlət büdcəsindən 2, 2 milyard manatadək vəsait xərclənib ki, bunun da 870 milyon manatı yol tikintisinə sərf olunub. Cari ildə bölgədə quruculuq işlərinə 2, 6 milyard manatlıq vəsait yönəldilməsi nəzərdə tutulur. Azərbaycan dövləti, həmçinin Qarabağ regionuna böyük şəxsi sərmayələr cəlb edən sahibkarlara bir sıra güzəştlər tətbiq edir. Bu il həmin məqsəd üçün gözlənilən investisiya həcmi 33 milyon manatdır. Prezident İlham Əliyevin iqtisadi inkişafı sürətləndirmək tədbirlərinə dair göstərişlərinə uyğun olaraq, azad edilmiş ərazilərdə emal və xidmət infrastrukturunun yaradılması üçün sərmayə ayıranların vergi və gömrük güzəştləri, sosial sığorta kimi imtiyazlarla əhatə olunması planlaşdırılır. Eyni zamanda, Qarabağda istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların şəxsi təşəbbüsləri ilə bağlı digər stimullaşdırma formaları da təkmilləşdirilir.

Dövlətimizin apardığı məqsədyönlü siyasət davamlı olaraq öz müsbət nəticələrini verməkdədir. Üçtərəfli Bəyanata əsasən, Azərbaycan tərəfindən Laçının kənarından alternativ yolun qısa müddətdə çəkilişindən və avqustun əvvəlində keçirilmiş "Qisas" antiterror əməliyyatından sonra ermənilərə Laçın şəhərini, eləcə də Zabux və Sus kəndlərini boşaltmaq üçün verilən vaxta uyğun olaraq, onlar tələbə tabe olmaq məcburiyyətində qalıb, ərazini tez-tələsik tərk etməyə başlayıblar. Artıq həmin məntəqələrə rabitə və elektrik enerjisinin verilişi dayandırılıb, hər şey demontaj olunub. Qeyri-qanuni məskunlaşma ilə Laçına yerləşdirilmiş erməni ailələrinin 90 faizdən çoxu şələ-küləsini yığışdıraraq çıxıb-gedib. Bölgədəki qanunsuz erməni silahlı dəstələri də Qarabağdan uzaqlaşdırılırlar.

Amma Laçında son günlərini yaşayan ermənilər tərk etdikləri əraziləri yandırır, evlərə, meşələrə, biçənəklərə od vurur, yenə də öz xislətlərinə uyğun olaraq, vandallıq "avtoqraf"ları qoyub gedirlər. İnfrastruktur obyektlərinin, binaların qapı və pəncərələrini sökür, üstü meyvəli ağacları baltalayırlar. Haylar orada dəfn olunmuş əzizlərinin qəbirlərini açaraq meyitlərinin sür-sümüyünü də çıxarıb aparırlar ki, əslində, bu, bizim əzəli və müqəddəs torpaqlarımızın erməni murdarlığından təmizlənməsi baxımından "təqdir" edilməli haldır. Onsuz da Laçından erməni izi-tozu silinəcək. Onların ziyankarlığına gəlincə isə bizə mənfur nəfəs dəymiş heç nə gərək deyil. Özümüz Şuşanı, Ağdamı, Zəngilanı bərpa etdiyimiz kimi, Laçını da yenidən qurub dirçəldəcək, gülüstana çevirəcəyik. Ermənilərin köçqabağı ətrafda olan hər şeyi məhv etmələrini göstərən videokadrlarsa dünyanın gözü qarşısında onların nə qədər qeyri-insani və dağıdıcı məxluqlar olduğunu aşkar şəkildə sərgiləyir.

Yeri gəlmişkən, Azərbaycanın Baş Prokurorluğu Laçın və Xocalı rayonlarında meşə massivlərinin yandırılması faktları üzrə cinayət işi açıb, buna baxmayaraq, ekoloji terror əməlləri davam edir.

Laçının şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində minalanmış sahə də aşkar edilib ki, bu, olmasaydı, işğalçı erməni vəhşiliyinin "portreti" yarımçıq təsir bağışlayardı. Orada aşkar edilən piyada əleyhinə minalar fədakar istehkamçı qruplarımız tərəfindən zərərsizləşdirilib. Ərazidən, ümumilikdə, indiyədək 991 ədəd mina çıxarılıb. Qeyd etmək lazımdır ki, aşkar olunan minaların hamısı 2021-ci ildə, yəni İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda istehsal olunan partlayıcı qurğulardır. Artıq dədə-baba yurduna qayıdacaq laçınlılar doğma yaylaqlarda təhlükəsiz yaşayıb-yarada biləcəklər.

Azərbaycanın quruculuq və sülhpərvərlik əzmi Qərbdən əsən küləklərin də mülayimləşməsinə səbəb olub. İstər Avropa İttifaqı, istər supergüclər, istərsə də Ermənistana havadarlıq etməkdə tanınan ölkələr artıq zamanın diktə etdiyi reallıqlarla barışır və Azərbaycanın strateji təmkin nümayişini dəstəkləyirlər. Regional proseslərin gedişatı beynəlxalq oyunçuları da bundan maksimum fayda götürməyə kökləyir və onların davranışları qalib ölkəyə qarşı əks-cəbhə təşkil etmir. Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyi yüksək səviyyədə dəstəklənir. Bununla bağlı, ilk növbədə, onu qeyd edə bilərik ki, dövlətimizin başçısının Aİ Şurasının prezidenti Şarl Mişellə davamlı görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni Brüssel sülh formatı yaradılıb.

Görünən budur ki, zaman hər şeyi yerinə qoyub sahmanlayır. Dünya gücləri, beynəlxalq aləm erməni vandalizminə on illərlə sussa da, Azərbaycan öz gücü ilə haqqı bərpa etdi. Dağıdılan, talan olunan yurdlarımızın abadlaşdırılması, ən yüksək səviyyədə tikinti-quruculuq layihələrinin gerçəkləşdirilməsi Azərbaycanın şər üzərində qələbəsini şərtləndirir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***